# YUNUS ƏMRƏ

XIII əsr Türk mütəsəvvüf ədəbiyyatının ən böyük şairi Yunus Əmrə (1241-1320) islamın yayılmasında və türk dilinin sadə xalq dilinə yaxınlaşmasında əvəzsiz rol oynamışdır. Onun Türkiyənin hansı bölgəsində anadan olması haqqında müxtəlif fərziyyələr var. Bəzi tədqiqatçılar onun Sarıköydə, Karamanda, Kırşəhirdə, Lumnidə və s. yerlərdə doğulub boya-başa çatdığını deyirlər. Ümumilikdə isə Yunus Əmrə bütün türk dünyasının şairidir. Elə bu baxımdandır ki, şairirn qəbrinin Türkiyənin on dörd bölgəsində olduğu, Azərbaycanın Qax rayonunun Oncalı kəndindəki Oğuzlar qəbrisanlığında da məzarının olması məlumdur. Bütün bunlar şairə olan sevgidəndir ki, hər bölgə , hər şəhər onu öz şairi hesab edir. Bəxtiyar Vahabzadənin təbirincə desək "Yunusun qəbri onu sevənlərin ürəyindədir".

Bu dövrə qədər şairin bizə Divanı və Risalətün –Nüshiyyə ( öyüd-nəsihət) əsəri gəlib çatıb. Onun divanında son dövür dünya əlyazmaları kitabxanalarından tapılan nümunələrə görə 417 şeiri məlumdur. Bu əlyazmaların çox hissəsi Türkiyənin müxtəlif bölgələrində olan kitabxanalarda qorunub saxlanılır.

Yunus Əmrə yaradıcılığı çoxşaxəli və rəngarəngdir. Bu poeziya insanı kamilliyə və özünü dərk etməyə çağıran bir poeziyadır. Yunus yaradıcılığı başdan-başa Allah kaləmı, Qurani-Kərimin təbliği, islami dəyərlərin qorunması ilə yoğrulan poeziyadır. Onun yaradıcılığının əsasını İnsan sevgisi təşkil edir. Bütün insanları bir gözlə görən şair onları dost, həmdəm olmağa səsləyir.

Gəlin dostlar bir olalım
Eşqi kolay qılalım
Sevəlim, sevilələim
Dünya kimsəyə qalmaz.

Mövlana kimi Yunus Əmrə yaradıcılığı da Tanrıdan başqa mövcudat yoxdur, fikrinə dayanaraq mütləq həqiqətdən başqa bir varlığı qəbul etmir. Şairin dünyagörüşünə görə hər şeyin əksi varsa, mütləq varlığın əksi yoxdur. Var olan bütün varlıqlar son anda öz əslinə qayıdacaq ideyası onun poeziyasının əsasını təşkil edir. Şeirlərinin birində şair bu ideyanı poetik dillə belə ifadə edir.

Zihi dərya ki ümmandan göründü,
Nə dəryadır, nə ümmandır dör indi,
Əgər ayinə minsə görən bir,
Görən bir, görünən min-min göründü.

Şairin " Risalətün-Nüshiyyə" didaktik məsnəvisi XIII əsrdə farscanın hökm sürdüyü bir dövrdə, təlatümlər içərisində boğulan türk dünyasının yetişdirdiyi bu dahi sənətkar türkcənin gözəlliyini yaratdığı əsərlərində ortaya qoya bilmişdi.O

dövrdə Yunus Əmrənin bu əsəri sadə, aydın türkcədə qələmə alması, XXI əsr insanının anlayacağı bir tərzdə, əruz vəznində yazıb-yaratması, türk dilinin geniş imkanlarından xəbər verir. Bu vaxta qədər Azərbaycan ədəbiyyatı tarixində ilk didaktik məsnəvi F.Əttarın fars dilində yazdığı "Məntiqül-teyr" əsəri hesab olunur. Lakin indi qətiyyətlə deyə bilərik ki, Yunus Əmrənin türk dilində qələmə aldığı "Risalətün-Nüshiyyə" didaktik məsnəvisi türkdilli poeziyada ilk didaktik məsnəvidir.

Bu risalə 1307-1308-ci illərdədə ( hicri. 707) əruz vəznində, məsnəvi şəklində yazılmışdır. 573 beytdən ibarət olan bu öyüd-nəsihət risaləsi 13 beytlik mənzum girişdən sonra qisa bir mənzurə ilə başlayır. Bu məsnəvini klassik məsnəvilərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də əsərdə ənənəvi başlıqların olmamasıdir. Bildiyimiz kimi həm klassik, həm də orta əsr məsnə-vilərini şərtləndirən əsas cəhətlərdən biri də onlarda ənənəvi başlıqlarla olmasıdır. Tohid, nət, münacat, mədhiyyə və fəxriyyə ilə başlayan bu məsnəvilərdə şair Allahin birliyini, peyğəmbərin meracını verdikdən sonra dövrün hökmdarının tərifini, ictimai vəziyyətin bəzi müsbət məqamlarını verməklə özü haqqında da qısa məlumat verir. Bütün bu xüsusiyyətlər həmin məsnəviləri şərtləndirən başlıca məziyyətlərdən biridir. Bu ənənənin türkdilli poeziyada yer alması ərəb və fars təsirlərindən gəlmə bir haldır ki, Yunus Əmrə zamanında bu ənənə hələ də poeziyada bir o qədər güclü rol oynamamışdır. Zaman keçdikcə öz təsirini gücləndirən yad ünsurlər başqa sahələrdə olduğu kimi poeziyaya da təsir etməyə başladı. Bu da özünü sonrakı türk məsnəvilərində götərməsi təbii bir hal kimi ortaya çıxdı. Biz Yunus Əmrənin məsnəvisində bu ənənəvi hallarla qarşılaşmadıq.